**e-mail:** info@azxp.org **Web:** www.azxp.org

**AzXP-nin Millət vəkili, Milli Müqavimət Hərəkatının təsisçilərindən biri, İdarə Heyətinin üzvü, tanınmış ictimai-siyasi fəal, ALÖV-Partiyasının sədri, hərbiçi zabit, Qarabağ qazisi, 2-ci qurup hərbi əlil Rza Səfərsoyun sağlamlığına və həyatına yaranmış təhlükə ilə bağlı**

## BƏYANAT

Azərbaycan Xalq Parlamenti özünün 15 aprel 2025-ci il tarixli fövqəladə iclasında:
AzXP-nin Millət vəkili, Milli Müqavimət Hərəkatının təsisçilərindən biri, İdarə Heyətinin üzvü, tanınmış ictimai-siyasi fəal, ALÖV-Partiyasının sədri, hərbiçi zabit, Qarabağ qazisi, 2-ci qurup hərbi əlil Rza Səfərsoyun sağlamlığına və həyatına yaranmış təhlükə ilə bağlı”:

-Rza Səfərsoyun xanımı Təranə Səfərsoyun onun sağlamlıq vəziyyəti ilə bağlı sosial şəbəkələrdə, müxtəlif Youtube kanallarında yaydığı məlumatları, burada parlament pribunasından etdiyi çıxışını,

-Rza Səfərsoyun xanımının, onun özünün, hüquqi vəkili Nazim Musayevin dəfələrlə Azərbaycan Respuplikası İnsan Hüquqları üzrə müvəkkilinə (Ombudsman) onun sağlamlığı barədə məlumat və müraciətlərini,

-Rza Səfərsoyun Müdafiə Komitəsinin yaydığı bəyanatı,

-Millət vəkillərinin təkliflərini,

- ABA Media, AzerFreedom TV, Müqavimət TV, Voice of U, Xural TV və Ayvazoğlu TV-nin izləyicilərinin, sosial şəbəkələrdə xalqımızın müxtəlif sosial qrup və təbəqələrindən olan insanların, eləcə də mənsub olduğu ictimai və siyasi təşkilat üzvlərinin tələblərini,

-Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 511-ci maddəsinin (Xəstəliyə görə cəzanı çəkməkdən azad etmə) tələblərini nəzərə alaraq və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş "Məhkumların cəza çəkməsinə mane olan ağır xəstəliklərin Siyahısı"nın
2.2.4. Beyin damarlarının qansızması və trombozu ilə fəsadlaşan eritremiya,
5.2.6. Dağınıq sklerozu,
6.1. III dərəcəli qan dövranı çatmazlığı ilə gedən ürək xəstəlikləri,
6.1.2. Ürəyin qazanılmış və anadangəlmə qüsurları,
6.2.1. Ürək əzələsinin kəskin təkrarı transmural və geniş ocaqlı infarktı, ürəyin dayanıqlı ritm pozğunluğu və kəskinləşən ürək çatmazlığının üstünlüyü ilə gedən formalar,
8. Həzm sistemi üzvlərinin xəstəlikləri
8.1. Bağırsaqların və digər həzm orqanlarının kaxeksiya stadiyasında sorulma pozğunluqları ilə müşahidə olunan xəstəliklərinə uyğun olaraq,

**BƏYAN EDİR:**

1. Hakimiyyətin ayrı-ayrı məmurlarının qanunsuz hərəkətlərini və bütövlükdə hakimiyyətin xalqımıza qarşı apardığı yanlış siyasəti açıq şəkildə və cəsarətlə tənqid etdiyinə və eləcə də, aktiv-ictimai siyasi fəaliyyətinə görə şərlənərək həbs edilən 2-ci qrup əlil Rza Səfərsoyun sağlamlığına və həyatına yaranmış təhlükənin bütün məsuliyyəti mövcud Azərbaycan hakimiyyətinin üzərinə düşür.

2. Respublikanın bütün ləyaqətli vətəndaşlarını: siyasi qüvvələri, jurnalistləri, reportiyorlari, ziyalıları, şair və yazıçılari Rza Səfərsoyun təcili azadlığa buraxılıb müalicəsinin təşkil edilməsini təmin etmək məqsədilə səylərini birləşdirməyə çağırır.

3. Havasız həbsxana şəraitində ağır xəstəlklərlə mübarizə aparan və hər an həyatını itirmə riski altında həyat mücadiləsi verən Rza Səfərsoy cəzasının qalan hissəsini çəkməkdən azad edilməlidir və hakimiyyət onun müalicəsi üçün zəruri olan bütün tədbirləri görməyə borcludur.

4. Xalq Parlamenti Rza Səfərsoyun hüquqlarının tam bərpa edilməsinədək mübarizəsini davam etdirəcək və bu məqsədlə də Respublika ictimaiyyətini fəal vətəndaşlıq mövqeyi sərgiləməyə çağırır.

15 aprel 2025-ci il.
Bakı-Brüssel.
AzXP-nin sədri: Abid Qafarov.